

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 112 (24.249)

23 iyun 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın Baş nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Qazaxıstanın Baş naziri Alixan Smailovu qəbul edib.

Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji xarakter daşıdığını deyən dövlətimizin başçısı əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, ikitərəfli münasibətlərin gündəliyinin geniş olduğunu bildirdi.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ötən il Azərbaycana, özünün isə bu il Qazaxıstana səfəri zamanı əldə edilmiş razılıqların uğurla həyata keçirildiyini və onların icrasının daim diqqətdə saxlanıldığını bildirən Prezident İlham Əliyev bunu əməkdaşlığımızın yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin regional əməkdaşlıq, o cümlədən Xəzər hövzəsində və daha geniş məkanda əməkdaşlıq üçün böyük önəm daşıdığını qeyd etdi. Azərbaycan Prezidenti bu əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi, bütün bunların ticarət dövriyyəsinin həcminin artırılması, əlavə biznes imkanlarının yaradılması, energetika, nəqliyyat və digər sahələrdə böyükmiqyaslı layihələrin həyata keçirilməsi işinə xidmət etdiyini vurğuladı.

Prezident İlham Əliyev Alixan Smailovun səfərinin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.

Xoş sözlərə görə minnətdarlıq edən qonaq Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.

Alixan Smailov qarşıdan gələn Qurban bayramı münasibətilə dövlətimizin başçısına və dost Azərbaycan xalqına təbriklərini çatdırdı.

Bu il Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğunu vurğulayan qonaq Ulu Öndərin Qazaxıstana həmişə səmimi dostluq münasibətləri bəslədiyini dedi, bu il Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə Heydər Əliyev küçəsinin açılışını ölkələrimizin və xalqlarımızın birliyinin təcəssümünü bir daha nümayiş etdirdiyini bildirdi.

Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin xatirəsinə olan hörmətə görə təşəkkürünü ifadə etdi, bunun Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirildiyini dedi.

Azərbaycanla Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirən və bütün sahələrdə əməkdaşlığımızın uğurla inkişafından məmnunluğunu ifadə edən Alixan Smailov qarşılıqlı fəaliyyətimizin strateji tərəfdaşlığa əsaslanan münasibətlərimizin göstəricisi olduğunu vurğuladı. Qazaxıstanın Baş naziri əməkdaşlığın müxtəlif sahələrdə möhkəmlənməsi işinə Azərbaycan Prezidentinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Ölkəmizin Qazaxıstan üçün Cənubi Qafqazda ən mühüm iqtisadi-ticarət tərəfdaşı olduğunu söyləyən qonaq ötən ilin nəticələrinə görə qarşılıqlı ticarətin həcminin 460 milyon dolları keçərək 40 faiz artdığını, bu il də bu dinamikanın davam etdirildiyini məmnunluqla bildirdi və potensialın daha da artırılması üçün imkanların olduğunu vurğuladı.

Görüşdə Qazaxıstan tərəfindən Füzuli şəhərində uşaqlar üçün Yaradıcılığın İnkişafı Mərkəzinin inşası yüksək qiymətləndirildi, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, ölkələrimiz arasında neft, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, gəmiqayırma, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Son dövrlərdə Xəzər dənizindən Orta Dəhliz vasitəsilə Azərbaycan və Qazaxıstan, həmçinin üçüncü tərəflərin bu marşrut istiqamətində yüklərinin həcminin çoxalması məmnunluqla qeyd edildi, bu istiqamətdə ölkələrimizin birgə səylərinin artırılmasının vacibliyi vurğulandı.

Söhbət zamanı dost ölkə Qazaxıstan şirkətlərinin də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müxtəlif layihələrdə iştirakı perspektivləri müzakirə olundu.

**AZƏRTAC**

## Dövlət qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Abasov Azim Heydər oğlu
Ağayev İsa Məhəmməd oğlu
Babayev Elxan İbrahim oğlu
Bağırov Həsən Sədrəddin oğlu
Cavadov Şahverən Böyükağa oğlu
Eldarova Rəna Sabirovna
Əhmədov Nuru Hüseynqulu oğlu
Əhmədov Sahib İbrahim oğlu
Əmrahov Arif Həbulla oğlu
Əsədov Əsəd Əlastan oğlu
Əsədova Sədaqət Şamil qızı
Əzizov Əlizamin Qoca oğlu
Həsənova Rahilə Əmirəhməd qızı
Hüseynov Şahin Şahalı oğlu
İbişov Vidadi Behbud oğlu
İsayev Ramiz Mirzağa oğlu
İslamov İsmayıl Nadir oğlu
Qorçiyev Rafiq Alış oğlu
Quluzadə Rasimə Xasay qızı
Qurbanov Turab Dilsuz oğlu
Maxsudov Asəf Sadulla oğlu
Məmmədov İlkin Əfqan oğlu
Mönsümov Nizami İsmayıl oğlu
Namazov Ramid Zakir oğlu
Niftəliyev Həsən Kərim oğlu
Osmanov Ramil Məhəmməd oğlu
Rüstəmova Nəzakət Carullah qızı
Sultanov Sabir İsmayıl oğlu
Taptıqov Rövşən Ağagül oğlu
Tutayuk Fərhad Xaspolad oğlu
Ukleina Yekaterina Vasilyevna
Vəliyev İkram Sabir oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abbasov Emil İlqar oğlu
Abbasov Zaur Firidun oğlu
Abdullayev Şaban Ənvər oğlu
Abdullazadə Hüseyn Abdulla oğlu
Adıgözəlov Elçin Məmmədhəsən oğlu
Ağayev Ayaz Yengibar oğlu
Ağayev Aydın Tapdıq oğlu
Ağayev Azad Qabil oğlu
Ağayev Qafar Akif oğlu
Ağayev Pərviz İsmət oğlu
Ağayeva Leyli Fərid qızı
Ağayeva Samirə Həmidulla qızı
Alıyev Nazim Əyyub oğlu
Alıyeva Könül İsmət qızı
Allahverdiyev Hamlet Naşir oğlu
Aslanov İlkin Cəfər oğlu
Atayeva Aynur Əliabbas qızı
Babayev Mirbaba Sultan oğlu
Babayeva Arzu Elxan qızı
Babayeva Mehriban Eldar qızı
Bağıyeva Mətanət Nəbi qızı
Baxşəliyev Akif Hidayət oğlu
Balayev Sərdar İsmixan oğlu
Balayeva Çinarə İsa qızı
Bayramov Azər Arif oğlu
Bayramov Natiq Salman oğlu
Bayramov Orxan Fərhad oğlu
Bayramov Ucal İbrahim oğlu
Bilalova Sevinc Bahadur qızı
Cahangirov Xasay Xasay oğlu
Cavadov Amil Rafiq oğlu
Cavadova Məhluqə Əbil qızı
Cavadzadə Sevinc İsa qızı
Cəbrayılov Elşən Yaqub oğlu
Cəbrayılov Ramiz Məhərrəm oğlu
Cəfərov Fərid Hadı oğlu
Cəfərov İsmayıl Ramiz oğlu
Çələbiyeva Elnarə Niyazi qızı
Dadaşov Mahir Tofiq oğlu
Dilbazova Fənarə Bahadur qızı
Eyvazova İlahə Abbas qızı
Eyvazzadə Nicat İmran oğlu
Əhədov İlqar Zakir oğlu
Əhədov Zamiq Abdulla oğlu
Əhmədov Ağa-Əli Əliösət oğlu
Əhmədov Rəşad Şirin oğlu
Əhmədova Güllü Nizami qızı
Əhmədova Lalə Kərim qızı
Əli Nərmin Asif qızı
Əliyev Aqibət Qiyasalı oğlu
Əliyev Anar Şakir oğlu
Əliyev Arzu Əhməd oğlu
Əliyev Elşad Ərşad oğlu
Əliyev Etibar Salman oğlu
Əliyev Əkbər Zamiq oğlu
Əliyev Əlixan Fərman oğlu
Əliyev Kənan Arif oğlu
Əliyev Rəşad Zəbərxan oğlu
Əliyev Rövşən Roman oğlu
Əliyev Vasif Vaqif oğlu
Əliyeva Məlahət Rasim qızı
Əmənov Tofiq Ərəstun oğlu
Əminov Dəyanət Abdulməcid oğlu
Əmirmətov Emil Balaqadaş oğlu
Əsədov Ramil Alməmməd oğlu
Əsgərov Məmməd Xubali oğlu
Fərəcova Səbinə Çingiz qızı
Güləhmədov Mübariz Güləhməd oğlu
Hacıyev Əyyub Vaqif oğlu
Hacıyeva Gülnarə Rauf qızı
Heraçiyev Mohuma Əhməd oğlu
Hənifəzadə İbrahim Məhərrəm oğlu
Həsənov Aftandil Afət oğlu
Həsənov Azər Əliağa oğlu
Həsənov Ceyhun Rafiq oğlu
Həsənov Həsən Abdulla oğlu
Həsənov Mizam Sərdər oğlu
Həsənova Lalə Şahvar qızı
Həsənova Məlahət Mahmud qızı
Həşimov Fail Akif oğlu
Hümbətov Əhməd Ramazan oğlu
Hümbətov Fuad Dursun oğlu
Hüseynov Ağahüseyn Sabir oğlu
Hüseynov Azər Ədalət oğlu
Hüseynov Cavid Həmid oğlu
Hüseynov Ceyhun Həsən oğlu
Hüseynov Rəşad Qadir oğlu
Hüseynov Sərdar Tofiq oğlu
Hüseynova Şəlalə Elxan qızı
Xankişiyev Xanbaba Nizami oğlu
Xəlilova Mehriban Ağahüseyn qızı
İbrahimov Əhliman Tofiq oğlu
İsayev Rövşən Dadaş oğlu
İsgəndərov İrfan Xalid oğlu
İsmayılov Vüqar Xeyrulla oğlu
İsmayıl-zadə Xatirə Qulam qızı
Kazımov Tahir Seyidağa oğlu
Kərimli Azər Arif oğlu
Qafarova Elmira Sabir qızı
Qaralov Ruslan Ramiz oğlu
Qasımov Miryusif Abdulla oğlu
Qasımova Tahirə Adil qızı
Qədimquliyev Ramil Eyyub oğlu
Qədimov Orxan Elxan oğlu
Quliyev Azad Həsən oğlu
Quliyev Emil Zahid oğlu
Quliyev Fərid Eldar oğlu
Quliyeva Sevil Fikrət qızı
Mahmudov Eldar Gülağa oğlu
Mahmudov Ramiz Şamil oğlu
Manafov Sadıx Söynalı oğlu
Manafova Ülkər İlqar qızı
Mehbalıyev Emin Cabir oğlu
Mehdiyev Anar Gəncixan oğlu
Mehdiyev Faiq Fərman oğlu
Məcidli İlqar Tofiq oğlu
Məlikov Rüstəm Muxtar oğlu
Məmmədəliyeva Bətulə Ədhəm qızı
Məmmədli Nazəni Hüseyn qızı
Məmmədli Nicat Yunis oğlu
Məmmədov Adil Aydın oğlu
Məmmədov Akif Yaqub oğlu
Məmmədov Ceyhun Abasət oğlu
Məmmədov Elmar Eldar oğlu
Məmmədov Elnur Eldar oğlu
Məmmədov Fərid Rafiq oğlu
Məmmədov Kənan Kamil oğlu
Məmmədov Mehman Nəbi oğlu
Məmmədov Nəsimi Misgər oğlu
Məmmədov Ramal Yahya oğlu
Məmmədov Ramin Nemət oğlu
Məmmədov Sabit Rasim oğlu
Məmmədov Şahin Məmmədağa oğlu
Məmmədov Vəli Məmməd oğlu
Mirbağırova Tahirə Ramazan qızı
Mirzəyeva Gültəkin İnqlab qızı
Mirzəyeva Nərmin Rüfət qızı
Mirzəzadə Pərvanə Yaşar qızı
Mövsümova Ülviyyə Zakir qızı
Muradov Vüqar Sultan oğlu
Musayev Azad Əlibaba oğlu
Musayev Ceyhun Surxay oğlu
Mustafayev Pərviz Yusif oğlu
Nağıyev Natiq Fəhrad oğlu
Nəcəfov Samir Vəliyəddin oğlu
Nəcəfova Zərifə Ağa Rza qızı
Nəsibov Həmid Seyfəddin oğlu

Ardı 2-ci səhifədə

Nuriyev Çingiz Faiq oğlu
Orucov Anar Bayram oğlu
Ömərova Nüşabə Hacıağa qızı
Ramazanov Zaur Nikolayeviç
Rəhimova Nazilə Əvəz qızı
Rüstəmov Abbasəli Məhəmməd oğlu
Rüstəmova Gülnarə Sabir qızı
Rzayev Bayram Ağarza oğlu
Rzayev Xalid Məhərrəm oğlu
Rzayeva Aysel İbadət qızı
Salamzadə Lalə Həsrət Qulu qızı
Salayev Natiq Səxavət oğlu
Salmanov Hilal Şirinbala oğlu
Salmanov Sadiq Həsən oğlu
Salmanova Nəzakət Ənvər qızı
Seyidli Bəhruz Dadaş oğlu
Səfərov Elməddin Əkbər oğlu
Səfərov Fəqan Yaşar oğlu
Səfərova Sevinc Mobil qızı
Səmədov Rəvan Tohid oğlu
Süleymanov İlqar Xalid oğlu
Süleymanova Sevinc Məhəmməd qızı
Şamilov Həsən Nazim oğlu
Şıxməmmədov Vüqar Fevral oğlu
Tağı-zadə Gülarə Tağı qızı
Tapdıqlı Yusif Qabil oğlu
Verdiyev Şahmar Niyazi oğlu
Vəliyev Adil Seyfəddin oğlu
Vəliyev Anar Afiq oğlu
Vəliyev Rəşid Valeh oğlu
Yəhyayeva Solmaz Oktyabr qızı
Yusifov Rövşən Əlfrat oğlu
Yusifov Vidadi Vaqif oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 iyun 2023-cü il*

## Naxçıvan şəhərində əmək yarmarkası keçirilib





Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində əmək yarmarkası keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər rəsmi şəxslər də yarmarkanın açılışında iştirak edib.

Səlahiyyətli nümayəndə yarmarkanın açılışı münasibətilə iştirakçıları təbrik edib, bu qədər yüksək miqdarda iş yeri təklifinin əhalinin məşğulluq problemlərinin həllində əhəmiyyətli rol oynadığını bildirib.

Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasının Sosial-İqtisadi İnkişafına dair (2023-2027-ci illər) Dövlət Proqramı çərçivəsində Naxçıvanda minlərlə iş yerinin yaradılmasının hədəfləndiyini də diqqətə çatdırıb. Bildirib ki, muxtar respublikada aparılan sosial-iqtisadi islahatlar nəticəsində əlverişli biznes mühiti formalaşır. Azad iqtisadi zonaya çevrilən muxtar respublikaya investorlar böyük maraq göstərirlər. Naxçıvanda əmək yarmarkalarının ayda bir dəfə keçiriləcəyini diqqətə çatdıran Fuad Nəcəfli qeyd edib ki, əmək yarmarkaları əhalinin məşğulluq imkanlarını daha da artıracaq. Muxtar respublikada işaxtaran şəxslərin məşğulluqlarının təmin edilməsi, o cümlədən əmək bazarında rəqabətədavamlılığın artırılması, kadr potensialının yüksəldilməsi diqqət mərkəzində saxlanılacaq.

Sonra səlahiyyətli nümayəndə təqdim olunan iş yerləri ilə tanış olub. Məlumat verilib ki, əmək yarmarkasında, ümumilikdə, 110 müəssisədən 640 və haqqıödənilən ictimai işlər üzrə 347 vakansiya işaxtaran və işsiz vətəndaşlara təklif olunub.

Naxçıvan Biznes Mərkəzində keçirilən əmək yarmarkasında müxtəlif peşə və bacarıq səviyyələrinə uyğun yüzlərlə iş yeri təklif olunub. Dövlət müəssisələri ilə yanaşı, özəl sektor da yarmarkada aktiv iştirak edib. Belə ki, muxtar respublikada fəaliyyət göstərən 80 özəl müəssisədən 315 müxtəlif iş yeri çıxarılıb. Özəl müəssisələrin təqdim etdiyi vakansiyalara maraq daha böyük olub. Məsələn, "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən təklif olunan iş yerləri 442 manatdan 1500 manatadək əməkhaqqı ilə işaxtaran vətəndaşlar üçün daha çox cəlbedici olub. "Cahan Holdinq" isə yarmarkada müvafiq olaraq 450-1000 manat arasında əməkhaqqı ilə onlarla iş yeri təklif edib.

**Xəbərlər şöbəsi**

## B.İ.Məmmədovun Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəxtiyar İbrahim oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**
*Naxçıvan şəhəri, 20 iyun 2023-cü il*

## "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 14 dekabr tarixli 47-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 14 dekabr tarixli 47-VI FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.";

1.2. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Himayəçilik Şurası:

3-1.1. Fondun vəsaitinin formalaşdırılmasına və xərclənməsinə nəzarəti həyata keçirir;

3-1.2. Fondun vəsaitinin formalaşdırılması və xərclənməsi istiqamətlərinə dair müzakirələr aparır, hesaba daxil olan vəsaitin məbləği nəzərə alınmaqla, onun xərc istiqamətlərini müəyyən edir;

3-1.3. Fondun vəsaitinin idarə edilməsi ilə bağlı kənar auditor yoxlamalarının keçirilməsinə dair tədbirlər görür;

3-1.4. Fondun vəsaitinin idarə edilməsi ilə bağlı digər məsələləri həll edir.";

1.3. aşağıdakı məzmunda 4.5-1-ci bənd əlavə edilsin:

"4.5-1. Fondun vəsaitindən istifadəyə dair Himayəçilik Şurasına təkliflər versin;";

1.4. 4.6-cı bənddə "aidiyyəti üzrə" sözləri "Himayəçilik Şurasına" sözləri ilə əvəz edilsin;

1.5. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" üzrə:

1.5.1. 2.5.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.5.5. Himayəçilik Şurasının müəyyən etdiyi digər istiqamətlər.";

1.5.2. 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin yaratdığı Himayəçilik Şurası həyata keçirir. Himayəçilik Şurası Nazirliyin təklifləri əsasında Fondun xərc istiqamətlərini müəyyən edir.";

1.5.3. 5.2.1-ci və 5.2.2-ci yarımbəndlərdə "aidiyyəti üzrə" sözləri "Himayəçilik Şurasına" sözləri ilə əvəz edilsin;

1.5.4. aşağıdakı məzmunda 5.2.1-1-ci yarımbənd əlavə edilsin:

"5.2.1-1. Himayəçilik Şurasının qərarına əsasən Fondun vəsaitinin idarə edilməsi ilə bağlı cəlb edilmiş kənar auditor yoxlamalarının keçirilməsinə lazımi şərait yaradır;".

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**
*Naxçıvan şəhəri, 22 iyun 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi və "Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamənin, komitənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2007-ci il 20 noyabr tarixli 93-III FR nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rayon (şəhər) idarələri və "Oksigen İstehsalı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti Komitənin tabeliyindən çıxarılaraq özəlləşdirilməyə açıq elan edilsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə özəlləşdirilməyə açıq elan edilmiş müəssisələrin özəlləşdirilməsini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 23 avqust tarixli 104-I nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq həyata keçirsin;

2.2. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə təhvil-təslim işlərini başa çatdırdıqdan sonra özəlləşdirilməyə açıq elan edilmiş müəssisələrin idarə edilməsini və əmlakının qorunub saxlanılmasını təmin etsin;

2.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

3. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Fərmanın 1-ci hissəsi ilə özəlləşdirilməyə açıq elan edilmiş müəssisələrin Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin sərəncamına verilməsini və təhvil-təslim işlərinin aparılmasını iki ay müddətində təmin etsin.

4. "Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamənin, komitənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2007-ci il 20 noyabr tarixli 93-III FR nömrəli Fərmanının 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin işçilərinin say həddi cəmi 43 ştat vahidi olmaqla Komitənin aparatı üzrə 31 ştat vahidi, Layihə-Smeta Qrupu üzrə 12 ştat vahidi müəyyən edilsin.".

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**
*Naxçıvan şəhəri, 22 iyun 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin ləğv edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

2.3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 21 iyun 2023-cü il*

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun Himayəçilik Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun Himayəçilik Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

Cəlilzadə Aidə Məhəmməd qızı
Əliyev Asim Yediyar oğlu
Hacıyev İsmayıl Muxtar oğlu
İbrahimov Anar Adil oğlu
Seyidov Məcid Mirəli oğlu

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 22 iyun 2023-cü il*

## Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq, muxtar respublikada qida təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

2.1. Agentliyin əsasnaməsinin layihəsini, habelə Agentliyin strukturu və işçilərinin ümumi say həddi barədə təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2. Agentliyin yaradılması ilə əlaqədar:

2.2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

2.3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Agentliyin fəaliyyətinin təşkili üçün maddi-texniki təminat məsələlərini həll etsin, digər dövlət orqanları və qurumlarının Agentliyin fəaliyyətinin həyata keçirilməsinə xidmət edə bilən dövlət əmlakının inventarizasiyasını apararaq həmin əmlakın Agentliyə verilməsi ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi Agentliyin 2023-cü il üçün saxlanılması xərclərini Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsində Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və Dövlət Baytarlıq Xidmətinin smeta xərclərinin qənaəti hesabına təmin etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 22 iyun 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində “Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti” publik hüquqi şəxsin yaradılması barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi” publik hüquqi şəxsin əsasında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində “Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti” publik hüquqi şəxsi yaradılsın.

2. Nazirliyin tabeliyində “Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti” publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

2.1.1. yenidən təşkili və ləğv edilməsi;

2.2. Nazirliyə:

2.2.1. bu Sərəncamın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. “Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti” publik hüquqi şəxsin saxlanılması və fəaliyyətinin təmin edilməsi icbari tibbi sığorta sistemindən daxil olan vəsaitlər, onun fəaliyyətindən əldə edilən gəlirlər və qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən daxil olan vəsait hesabına həyata keçirilsin.

4. Nazirlik:

4.1. “Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti” publik hüquqi şəxsin Nizamnaməsini, strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

4.2. “Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti” publik hüquqi şəxsinin Nizamnaməsinin təsdiq edildiyi tarixdən 3 (üç) gün müddətində həmin hüquqi şəxsin dövlət qeydiyyatına alınması ilə bağlı “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq tədbirlər görsün;

4.3. tabeliyindəki səhiyyə müəssisələrində olan təcili tibbi yardım avtomobillərinin “Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti” publik hüquqi şəxsin balansına keçirilməsini təmin etsin;

4.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

5.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

5.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

5.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 22 iyun 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində “Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi” publik hüquqi şəxsin yaradılması barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası “Stomatoloji Mərkəz” publik hüquqi şəxsin və “Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası” publik hüquqi şəxsin Stomatoloji şöbəsinin əsasında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində “Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi” publik hüquqi şəxsi yaradılsın.

2. Nazirliyin tabeliyində “Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi” publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

2.1.1. yenidən təşkili və ləğv edilməsi;

2.2. Nazirliyə:

2.2.1. bu Sərəncamın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. “Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi” publik hüquqi şəxsin saxlanılması və fəaliyyətinin təmin edilməsi onun fəaliyyətindən əldə edilən gəlirlər və qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən daxil olan vəsait hesabına həyata keçirilsin.

4. Nazirlik:

4.1. “Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi” publik hüquqi şəxsin nizamnaməsini, strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

4.2. “Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi” publik hüquqi şəxsin nizamnaməsinin təsdiq edildiyi tarixdən 3 (üç) gün müddətində həmin hüquqi şəxsin dövlət qeydiyyatına alınması ilə bağlı “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq tədbirlər görsün;

4.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

5.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

5.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

5.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 22 iyun 2023-cü il*

## Muxtar respublikada aparılan islahatlar böyük məşğulluq imkanları yaradacaq



Naxçıvan Biznes Mərkəzində keçirilən əmək yarmarkası zamanı ***Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov*** “Şərq qapısı” qəzetinə müsahibə verib: – Muxtar respublika sakinlərinin məşğulluğunun təmin olunması üçün növbəti əlamətdar bir hadisə – əmək yarmarkası keçirilir. Əmək yarmarkası muxtar respublika tarixində ilk dəfə bu qədər geniş və əhatəli keçirilir. Vətəndaşlara, imtiyazlı şəxslərə təqdim olunan vakansiyaların profillərinə, müxtəlifliyinə, sayına görə ən böyük tədbir hesab olunur. Hesab edirəm ki, bu tədbir cənab Prezidentin müvafiq Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər ərzində sosial-iqtisadi inkişafına dair təsdiq etdiyi Dövlət Proqramı çərçivəsində müəyyən olunmuş Tədbirlər Planının bir hissəsidir. Həmin Tədbirlər Planında muxtar respublikanın sosial-iqtisadi inkişafı, habelə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı vasitəsilə Naxçıvan Muxtar Respublika sakinlərinin rifahının yüksəldilməsi, habelə onların keyfiyyətli, dayanıqlı məşğulluq imkanlarının təmin olunması nəzərdə tutulub. Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan işlər təkcə həyata keçirilən əmək yarmarkası ilə kifayətlənmir. Analoji tədbirlər ilin növbəti dövründə də davam etdiriləcəkdir. Hesab edirəm ki, muxtar respublikada son dövrlər həyata keçirilən islahatlar, o cümlədən sahibkarlıq mühitinin yaxşılaşdırılması muxtar respublika sakinlərinə böyük məşğuliyyət imkanları yaradacaq. Bu məşğulluq əhali rifahının yüksəldilməsi ilə nəticələnəcək. Dövlət Proqramı çərçivəsində yalnız yeni iş yerlərinin açılması yox, həmçinin vətəndaşlara başqa aktiv məşğulluq tədbirləri ilə bağlı məşğulluq imkanlarının artırılması da nəzərdə tutulur. Bununla əlaqədar olaraq peşə məsləhət xidmətləri həyata keçiriləcək. Peşə ixtisas bacarıqlarının artırılması ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin proqramı müəyyənləşib. Peşə hazırlıq mərkəzi ilə muxtar respublika sakinlərinin peşə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində ciddi Tədbirlər Planı formalaşdırılıb. Habelə özünüməşğulluq tədbirləri çərçivəsində muxtar respublikanın aztəminatlı ailələrinə, həmçinin sağlamlıq imkanları məhdud şəxslərə, o cümlədən bu kateqoriyadan olan digər imtiyazlı şəxslərə fərdi təsərrüfatların yaradılması, onların kiçik biznesinin formalaşdırılması, bununla da dayanıqlı, keyfiyyətli özünəməşğulluq fəaliyyətlərinin təmin olunması üçün işlər həyata keçirilir. Müqayisə üçün qeyd edək ki, son 5 il ərzində muxtar respublikada mindən artıq bu istiqamətdə fərdi təsərrüfat yaradılıbsa, 2023-cü ildə planımız ondan ibarətdir ki, 1500 fərdi təsərrüfatın yaradılması üçün imtiyazlı şəxslər və aktivlər təqdim olunsun. Burada xüsusi spesifik hadisə ondan ibarətdir ki, istər iqtisadi, sosial, istərsə də aqrar mühit ilə əlaqədar olaraq çox unikal aktivlərin təqdim olunması nəzərdə tutulur. Bu istiqamətdə müvafiq dövlət orqanları mərkəzi icra hakimiyyəti orqanları ilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin çox sıx əməkdaşlığı var. Muxtar respublika sakinlərinə bildirmək istəyirəm ki, ilin ikinci hissəsində nazirlik tərəfindən muxtar respublikada məşğulluq, sosial siyasət, habelə sosial sığorta sahələrində böyük islahatlar həyata keçiriləcəkdir. Qeyd edim ki, bu əmək yarmarkası olduqca izdihamlı keçir. Bir daha vətəndaşlara iş seçimində uğurlar arzu edirəm. Hesab edirəm ki, işaxtaran şəxslərlə işəgötürənlər arasında ölkə üzrə vahid sistem vasitəsilə çox düzgün və keyfiyyətli xidmət nəticəsində əməli nəticələrə nail olacağıq.

Onu da qeyd edim ki, “DOST” İş Mərkəzi vətəndaşların, uzun müddət işsiz qalan şəxslərin müvəqqəti işlə təmin olunması ilə bağlı bir mərkəzdir. “DOST” vasitəsilə təqdim olunan vakansiyalarda haqqıödənilən iş müvafiq qanunvericiliklə tənzimlənən mexanizmdir. Onun əsas məqsədi cəmiyyətdə müəyyən iş imkanlarına məhdud şəxslərin müvəqqəti məşğulluğunun təmin olunmasıdır. Hesab edirəm ki, müvəqqəti dövrdə də olsa, muxtar respublika sakinlərinin məşğulluğunun təmin olunması əhəmiyyətli bir prosesdir.

✍ **Gülcamal TAHİROVA**



*23 iyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür*

## Dövlət qulluğu xalqa və dövlətə xidmət imkanıdır

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 5 may tarixli Sərəncamına əsasən hər il iyunun 23-ü ölkəmizdə “Dövlət Qulluqçularının Peşə Bayramı Günü” kimi qeyd olunur.*

Azərbaycanda dövlət qulluğu sisteminin formalaşması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar edilmiş, dövlət idarəçiliyinin yeni əsasları formalaşdırılmış və Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuşdur. Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi prosesinə başlanılmış, dövlət qulluğu sahəsində islahatlar həyata keçirilmiş, zəngin qanunvericilik bazası yaradılmışdır. Dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsidir. Həmin qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuş, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilmişdir.

Ulu Öndərin dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının imzası ilə mühüm Dövlət proqramları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ-hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizmi yaradılmış, dövlət qulluğu sahəsində münasibətlərin tənzimlənməsi daim nəzərdə saxlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın təsdiq edilməsi bunun bariz nümunəsidir. Dövlət qulluqçularının maddi rifah halının yaxşılaşdırılması istiqamətində mütəmadi tədbirlərin həyata keçirilməsi də ölkə başçısının diqqət mərkəzindədir. Bu istiqamətdə görülən işlərə uyğun olaraq 2022-ci ildə ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə dövlət qulluqçularının əməkhaqlarının 1,1 misli həcmində artırılması aparılan islahatların məntiqi davamıdır.

Ölkə başçısının rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında da dövlət qulluğu sahəsində uğurlu islahatlar aparılmış, müasir dövlət idarəçilik sistemi formalaşdırılmışdır. Dövlət idarəçiliyində innovasiyalar tətbiq edilmiş, bəzi dövlət orqanları üzrə səyyar xidmətlər təşkil olunmuş, “Elektron hökumət” portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri, “ASAN xidmət” mərkəzi istifadəyə verilmişdir. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, dövlət qulluqçularının fəaliyyəti yaxşılaşdırılmış, onlara lazımi iş şəraiti yaradılmışdır.

Bu gün muxtar respublikada bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsi də öz inkişaf dövrünü yaşayır. “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli Fərmanı muxtar respublikada yeni idarəçilik mexanizminin yaradılmasına, bu istiqamətdə yeniliklərin tətbiq olunmasına imkan vermişdir. Səlahiyyətli Nümyəndəlik institutu muxtar respublikada fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək, müvafiq ərazinin sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları ilə qarşılıqlı fəaliyyətini əlaqələndirmək və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək məqsədilə yaradılmışdır. Buna uyğun olaraq “Dövlət qulluğu haqqında” Qanuna edilmiş son dəyişikliklərlə muxtar respublikada dövlət qulluğu sisteminin təkmilləşdirilməsi və müasir idarəetmə mexanizminin formalaşdırılması, dövlət qulluğu sisteminin vahid idarəetmə sisteminə inteqrasiyası üçün əlverişli şərait yaranmışdır.

Dövlət qulluğu sahəsində kadr siyasətinin həyata keçirilməsi dövlətə və cəmiyyətə xidmət üçün lazımi keyfiyyətlərə malik dövlət qulluqçularının formalaşdırılması, habelə dövlət qulluğu sferasının yüksək peşəkarlığa malik, vicdanlı, məsuliyyətli və vətənə sədaqətli işçilərin cəlb olunmaqla komplektləşdirilməsi məqsədinə xidmət edir. Bu məqsədlərə nail olmaq üçün yeni məktəb binaları, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpusları tikilmiş, təhsil müəssisələrində tədris müasir standartlara uyğunlaşdırılmış, maddi-texniki baza möhkəmləndirilmiş, mütəxəssis və kadrların hazırlığı üçün hərtərəfli şərait yaradılmışdır.

2008-ci il aprelin 22-də Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması bu istiqamətdə həyata keçirilən islahatların ən vacib tərkib hissəsidir. Muxtar respublikada dövlət qulluğu sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2020-ci il dekabrın 18-də Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi yaradılıb. Mərkəzin yaradılmasında məqsəd dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların muxtar respublikada tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının etik davranış qaydalarına əməl edilməsinə nəzarət olunması, eləcə də dövlət orqanlarında işə qəbul, attestasiya, sertifikasiya və qiymətləndirmənin həyata keçirilməsi sahəsində qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsinin təmin edilməsidir.

Mərkəzdə test mərkəzinin, lokal kompüter şəbəkəsinin, mərkəzi server sisteminin mövcudluğu innovasiya və startapların tətbiqini mümkün etmişdir. Bundan başqa, test imtahanı proqramı, Dövlət Qulluqçularının Reyestrinin aparılması proqramı, Test və müsahibələrdə iştirak üçün onlayn qeydiyyat proqramı istifadəyə verilmişdir. Dövlət İmtahan Mərkəzinin portalının və yeni proqram təminatının istifadəyə verilməsi, kibertəhlükəsizliyin təmin edilməsi məqsədilə portalın *“gov.az”* domen zonasına köçürülməsi vətəndaşların dövlət qulluğuna qəbul üçün müraciət etmək imkanlarının asanlaşdırılmasına, vaxt və maliyyə itkisinin qarşısının alınmasına, mərkəzə gəlmədən və əlavə sənəd təqdim etmədən “Şəxsi kabinet” vasitəsilə internet üzərindən qeydiyyatdan keçməklə test və müsahibələrdə iştirakına şərait yaratmışdır.

Bu gün muxtar respublikada vətəndaşların dövlət qulluğuna müsabiqə və şəffaflıq əsasında qəbulu üçün lazımi şərait mövcuddur. İndiyədək keçirilmiş 23 müsabiqədə 8676 namizəd iştirak etmiş, onlardan 1436-sı müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunmuşdur. Mərkəz tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanları da keçirilir. Naxçıvan Muxtar Respublikasının daxili işlər, ədliyyə, fövqəladə hallar, prokurorluq, gömrük, vergi, miqrasiya və digər orqanlarda vakant vəzifələrin tutulması və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün indiyədək keçirilmiş 64 müsabiqədə iştirak edən 2635 namizəddən 927-si test imtahanlarında müvafiq keçid balını toplamışdır.

Hər il məhkəmə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün etik davranış qaydalarına riayət olunması, kargüzarlığın, dövlət qulluqçularının reyestrinin və şəxsi işlərinin aparılması qaydaları, dövlət qurumlarında informasiya təhlükəsizliyi və digər mövzularda keçirilən seminarlarda yüzlərlə inzibati vəzifə tutan dövlət qulluqçusu iştirak edir. “Səyyar dövlət qulluğu xidməti könüllülüyü” layihəsi çərçivəsində rayonlarda yaşayan, internet və informasiya-kommunikasiya texnologiyalarından istifadə edə bilməyən və elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən vətəndaşlara yaşadıqları yerlərdə səyyar xidmət göstərilir.

Həyata keçirilən uğurlu kadr islahatları nəticəsində muxtar respublikada dövlət qulluqçularının yaş tərkibi getdikcə cavanlaşır, təcrübəli işçilərlə yanaşı, gənclərə də geniş yer verilir. Bu, dövlət idarəçiliyində öz müsbət nəticəsini göstərməkdədir. Dövlət Qulluqçuları Reyestrinin məlumatlarına əsasən muxtar respublikanın dövlət orqanlarında 2423 nəfər fəaliyyət göstərir ki, onların 54-ü siyasi, 1893-ü inzibati, 476-sı isə yardımçı vəzifə tutur. Dövlət qulluqçularının 22,3 faizini gənclər, 24,2 faizini isə qadınlar təşkil edir.

Azərbaycan Respubunlikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” muxtar respublikada dövlət qulluğu istiqamətində yeniliklərin həyata keçirilməsinə imkan verəcəkdir. Proqrama əsasən dövlət qulluğunda bilik, bacarıq və səriştənin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsinə uyğun olaraq insan kapitalının inkişafına yönəldilmiş istiqamətlərdən biri də dövlət qulluqçularının inkişaf etdirilməsi üçün təlim modullarının hazırlanmasıdır. Müvafiq dövlət orqanlarında dövlət qulluqçularının təlimlərə cəlb edilməsi onların bilik, bacarıq və səriştələrinin artmasını təmin edəcəkdir.

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə kadr potensialının inkişafına ehtiyac olduğunu nəzərə alaraq yerli strukturların ölkənin müvafiq dövlət orqanları ilə intensiv təcrübə mübadiləsinin həyata keçirilməsi, əməkdaşların müvafiq təlim və təcrübə səfərlərinin təşkil edilməsi istiqamətində tədbirlər görüləcəkdir.

Dövlət Proqramında nəzərdə tutulmuş institusional inkişaf istiqamətində Naxçıvan Muxtar Respublikasının dövlət orqanları ilə Azərbaycan Respublikasının dövlət orqanları arasında əməkdaşlığın gücləndirilməsi və müvafiq məlumat mübadiləsinin təmin edilməsi, müvafiq sahədə layihə təkliflərinin hazırlanması, əməkdaşlığın inkişafı və məlumat mübadiləsinin təmin edilməsi üçün tədbirlər görülməsi dövlət xidmətlərinin keyfiyyət səviyyəsinin yüksəlməsinə imkan verəcəkdir.

*Aparılan struktur islahatları Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının günün tələblərinə uyğun fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılmasına imkan verir. Görülən işlərin müqabilində hər bir dövlət qulluqçusu səylə çalışmalı, ölkəmizin inkişafı və tərəqqisinə öz töhfəsini verməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***“Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir”.***

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

# "Azərbaycan fəlsəfi fikir tarixinə müasir baxış" mövzusunda respublika elmi konfransı keçirilib

Naxçıvan Dövlət Universitetində keçirilən konfransda universitetin rektoru, dosent Elbrus İsayev çıxış edərək onun əhatəliliyi və elmi səviyyəsindən söz açıb. Rektor Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələri ilə yanaşı, Naxçıvan Dövlət Universitetində də fəlsəfə fənninə böyük diqqət olduğunu deyib və konfransın işinə uğurlar arzulayıb.

Bakı Dövlət Univesitetinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor Rəbiyyə Aslanova "Türk xalqlarının fəlsəfi fikir tarixinin tədqiqinin aktuallığı" adlı çıxışında qeyd edib ki, türk xalqlarının milli dirçəlişi, sosial və mədəni həyatında baş verən dəyişikliklər, milli özünütəsdiq prosesinin sürətlənməsi və müasir dünyaya türk birliyinin inteqrasiya imkanlarının genişlənməsi Türk dünyasına diqqətin artmasına səbəb olan amillərdəndir.

Adıçəkilən ali təhsil müəssisəsinin Fəlsəfə kafedrasının müdiri, dosent Kəmalə Pənahova "Orta əsr Azərbaycan fəlsəfi fikir tarixində Şərq peripatetizminin rolu" mövzusunda çıxış edərək Şərq dünyasında Məşşailik adı altında tanınan Şərq peripatetizminin tərkib hissəsi olaraq azərbaycanlı filosofların da bu zəngin fəlsəfə məktəbinə verdiyi töhfələrdən bəhs edib.



Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Rəşad Əsgərov "Qırmızı Professorlar İnstitutunun məzunlarının fəlsəfi tədqiqatları" adlı çıxışında vurğulayıb ki, Qırmızı Professorlar İnstitutunda təhsilin əsas forması tələbələrin Karl Marksın iqtisadi nəzəriyyəsini, fəlsəfə tarixini, o cümlədən materialist və dialektik təlimləri, inqilablar, sosial-iqtisadi tarixi araşdırdıqları və müzakirə etdikləri seminarlardan ibarət olub.

Gəncə Dövlət Universitetinin dosenti Etibar Musayevin "Müasir mərhələdə Azərbaycançılıq fəlsəfi ideyalarının yaranmasında milli-mənəvi və ümumbəşəri dəyərlərin rolu" adlı çıxışında diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycançılıq fəlsəfəsinin əsaslarını, rüşeymlərini hələ sovet dövründə Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərliyi zamanı başladıb. Ümummilli Liderimiz Azərbaycançılığı milli ideyaya çevirməklə milli-etnik ayrı-seçkiliyi aradan qaldırmağa, ölkədə ictimai-siyasi stabilliyi yaratmağa, dövlətin inkişaf konsepsiyasını qurmağa nail oldu. Bu, müasir, qloballaşan dünyada milli kimliyimizin tanınması istiqamətində mühüm bir addım idi.

Plenar iclasdan sonra ənənəvi və onlayn bölmədə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Bakı, Gəncə və Mingəçevir Dövlət universitetlərinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professor-müəllim heyəti olmaqla, ümumilikdə, 47 çıxış dinlənilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

---

*Səhiyyə*

# Bir ömürdən min ömrə gedən yol

*Bu həyatda insan üçün ən böyük, ən dəyərli sərvət sağlamlıqdır. İnsan sağlamlığının da keşiyində tibb işçiləri durur. Həkim olmaq böyük məsuliyyətdir. Ona görə ki, hər birimiz bu peşənin daşıyıcılarına bizim üçün əziz olan sağlamlığımızı etibar edirik. Həkim peşəsi çox nəcib və məsuliyyətli bir işdir, çünki insanların sağlamlığı, hətta bəzən həyatları həkimdən asılı olur. Həkim qayğısı, səmimiyyəti də müalicə vasitəsidir. İnsan xəstə olduqda həkim ona ən yaxın şəxs olur. Həkimlər elə ünsiyyət yaratmalıdır ki, xəstələr onlara inanaraq həyatlarını bu müqəddəs peşə sahiblərinə ürəklə etibar edə bilsinlər.*

Bu peşəyə yiyələnmək üçün xüsusi bir xarakterə, səbrə, diqqətliliyə, sakitliyə, ən əsası xeyirxahlığa sahib olmaq lazımdır, bunlarla yanaşı, möhkəmlik, tez qərar qəbul etmək qabiliyyəti, böyük bir məsuliyyət hissi də əsasdır. Həkim öz işinə ürəkdən bağlı olmalıdır, peşəsinin vacibliyini, ciddiliyini dərk edən, çətinliklərdən, təhlükələrdən qorxmayan bütün həyatını insanlara həsr etməyi qəbul edən, işləyərkən öyrənməyə və inkişaf etdirməyə davam edən olmalıdır. Həkimləri qəhrəman da adlandırmaq olar. Axı onlar hər gün qəhrəmanlıq edir, insan həyatını xilas edirlər, elə zamanlar olur ki, özlərini riskə atırlar, bir sözlə, bütün bəşəriyyətin varlığını uzadırlar. Bunlar hamısı onların əsl böyük əməyidir. Həm də həkimlər sanki yer üzündəki qanadsız mələklərdir, insanların xəstəliklərinin öhdəsindən gəlmək üçün və həyatlarını xilas etmək üçün göndərilmiş mələklər...



Belə həkimlərimizdən biri də Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin Radiologiya şöbəsinin müdiri, həkim-radioloq Əkbər Mehdiyevdir. Ömrünün 50 ilini Naxçıvan səhiyyəsinə, daha dəqiq desək, Naxçıvanda onkoloji xəstəliklərin araşdırılmasına, xəstələrin sağlamlığına həsr edən Əkbər həkim ömrünün 76-cı baharına qədəm qoyub.

Gəlin Əkbər həkimi yaxından tanıyaq. Mehdiyev Əkbər İsmayıl oğlu 15 iyun 1948-ci ildə Babək rayonunun Məmmədrza Dizə kəndində anadan olub. 1966-cı ildə Naxçıvan şəhər 32 nömrəli peşə məktəbini bitirib, 1967-ci ildə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olub, 1973-cü ildə həmin universiteti bitirərək Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzində həkim kimi fəaliyyətə başlayıb. Həmin ilin noyabr ayında və 1974-cü ilin fevral ayında Rusiyanın Stavropol şəhərində xüsusi təhlükəli infeksion xəstəlikləri üzrə kurs keçib. Həmin ildən də Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun Radio biologiya bölməsinə kiçik elmi işçi olaraq qəbul olunub.

1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Elmi Mərkəzinin Fiziologiya bölməsində kiçik elmi işçi olaraq vəzifəyə başlayan Əkbər Mehdiyev daha sonra Moskva şəhərində Ümumittifaq Onkoloji Mərkəzdə dəri və gözlə görünən selikli qişaların onkoloji xəstəliklərinin krioterapiya (maye azotla müalicə) üzrə kursu yüksək nailiyyətlərlə başa vurub. 1977-ci ildə 1 il, 1984-cü ildə isə iki il Bakı şəhərində Milli Onkoloji Mərkəzdə krioterapiya müalicəsi üzrə kursa cəlb olunan Əkbər həkim 1986-cı ildən Naxçıvan Onkoloji Mərkəzdə həkim kimi fəaliyyətini davam etdirir. Bu günlərdə aldığımız xoş xəbər muxtar respublikanın bütün tibb işçilərini, tanınmış həkimin əllərindən şəfa tapan insanları hədsiz sevindirdi. Prezident cənab İlham Əliyevin iyunun 16-da Azərbaycan Respublikasının səhiyyə işçilərinin təltif edilməsi haqqında Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin Radiologiya şöbəsinin müdiri Əkbər Mehdiyev Azərbaycan Respublikasında səhiyyə sahəsində xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə "Azərbaycan Respublikasının Əməkdar həkimi" fəxri adına layiq görülüb. Biz də yüzlərlə xəstənin şəfa tapmasında rolu olan Əkbər həkimlə görüşüb, bu əlamətdar hadisə münasibətilə təbrik etmək üçün Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzə ünvanlandıq.

Qeyd edək ki, 1948-ci ildə Naxçıvan Şəhər Poliklinikasında onkoloji kabinet kimi fəaliyyətə başlayan, fəaliyyətini 1951-ci ildən dispanser kimi davam etdirən səhiyyə müəssisəsi 2009-cu ildə mərkəzə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi üçmərtəbəli, tam uyğunlaşdırılmış, müasir avadanlıqlarla təchiz olunmuş binada yerləşir. 30 çarpayılıq mərkəzdə əhaliyə 8 həkim tərəfindən onkoloji xidmət göstərilir.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin Radiologiya şöbəsinin müdiri Əkbər Mehdiyev xəstələrinə ata münasibəti göstərən çox nikbin bir insandır. Onunla söhbətimiz də elə muxtar respublikada əhalinin sağlamlığının qorunması istiqamətində görülən işlərdən oldu. Əhaliyə göstərilən ambulator və stasionar onkoloji tibbi xidmətlərdən danışan Əkbər həkimin dediklərindən: – Bu gün onkoloji xəstəliklərin qarşısının alınması üçün ölkəmizdə, eləcə də muxtar respublikamızda məqsədyönlü tədbirlər görülür. Hazırda mərkəzdə süd vəzi xərçənginin diaqnostikası üçün ultrasəslə müayinə, rəqəmsal mammoqrafiya aparatları, onkoloji xəstəliklərin diaqnostikasında əsas rol oynayan, onkomarkerlər təyin olunan histoloji və sitoloji laboratoriya fəaliyyət göstərir. Mərkəzdə, həmçinin sümük-oynaq, yumşaq toxumalar, ağciyər və digər orqanların xəstəliklərinin diaqnostikası üçün rəqəmsal rentgen aparatı quraşdırılıb, şüa müalicəsinin "ROKS-AM" aparatı vasitəsilə aparılması təmin olunub. Dövlətimizin yaratdığı şəraitin nəticəsidir ki, Bakıya və ya qonşu ölkələrə üz tutan muxtar respublika sakinləri artıq bu avadanlıqlar vasitəsilə Onkoloji Mərkəzdə müalicə alırlar.

Onkoloji xəstəliklərin yaranma mexanizmi və səbəbləri barədə sualımıza isə bu sahədə 50 illik təcrübəsi olan Əkbər həkimin cavabı belə oldu: – Onkoloji xəstəliklər bütün dünyada xəstələnmələrin və ölüm hallarının əsas səbəblərindəndir. Ölüm hallarına əsasən onkoloji xəstəliklər ürək-damar xəstəliklərindən sonra ikinci yerdə durur.

Müalicə üsullarına gəldikdə isə onu deyə bilərəm ki, həkimlə xəstənin xəstəliyə qarşı mübarizə mövqeyi eyni olduqda daha yaxşı müalicə effekti alına bilər. Əsasən, müalicədə üç üsuldan istifadə edirik. Müalicə cərrahi, şüa və kimyəvi dərman üsulları ilə aparılır. Cərrah, radioterapevt, kimyəvi müalicə həkimlərinin birgə konsiliumu əsasında müalicə üsulu seçilir. Bu zaman xəstəliyin mərhələsi patomorfoliji növü dəqiqləşdirilir. Cərrahi və şüa müalicəsi yerli müalicə, kimyəvi müalicə isə sistem müalicəsi hesab olunur. Kimyəvi müalicəni də məlhəmlərlə yerli müalicə kimi aparmaq mümkündür. Bu gün sevindirici haldır ki, Naxçıvanda digər xəstəliklərlə yanaşı, onkoloji xəstəliklərin də müalicəsi və profilaktikası diqqət mərkəzində saxlanılır.

Maraqlı söhbət əsnasında Əkbər həkim Ulu Öndərimiz Heydər Əiyevlə bağlı olan bir xatirəsini də bizimlə bölüşdü. Belə ki, 1990-cı illərin əvvəllərində, şüa müalicəsinin aparılmsı üçün Naxçıvana "ROKS-AM" aparatı verilir. Ancaq həmin aparatı Bakı şəhərindən gətirmək lazım olur. Əkbər həkim akademik Cəmil Əliyevin təşkilatçılığı ilə həmin illər çətinliklə də olsa, aparatı Naxçıvana gətirir. İndi isə bir məsələ qalır, həmin aparatın quraşdırılması. Təbii ki, bu mühüm məsələ idi. Çünki ilk dəfə olaraq Naxçıvanda onkoloji xəstəliyin şüa müalicəsi aparılacaqdı. Aparatın qurulması üçün Naxçıvana mütəxəssis dəvət edən və bunun üçün Moskva və Sankt-Peterburqa məktub ünvanlayan Əkbər həkim uzun müddət gözləsə də, heç bir cavab ala bilmir. Səbəbi sonradan məlum olur ki, məktubların göndərilməsinə Bakıdan maneələr olub. Daha sonra o həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan Ulu Öndərə müraciət edir və bundan sonra Əkbər həkim, nəhayət ki, istəyinə nail ola bilir. Ümummilli Liderimizin təşəbbüsü ilə mütəxəssislər Bakıya, oradan da Naxçıvana gəlir…

Bəzən həkimlərə "Tanrının dostları" da deyirlər. İnsanlara sağlamlıq bəxş etməyi, ömürlərinə ömür calamağı yalnız bu müqəddəs peşə sahibləri bacarırlar. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkim-radioloqu Əkbər Mehdiyev deyir ki, həkim gərək öz peşəsinin məsuliyyətini dərk etsin. Xəstə ilə dost münasibəti yarada bilsin. Zamanın keşməkeşli sınağından çıxmış, ömrünün 75-ci səhifəsini vərəqləyən Əkbər həkimi dinlədikcə insanın ruhu sakitləşir. Üzünə sanki zəngin bir həyat məktəbinin qapıları açılır. Düşünürsən ki, zamanın diktəsi ilə yaşamamalısan. İnsan gərək yaşamaq istədiyi həyatı zamana diktə edə bilsin.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

---

# Kitab təqdimatı olub

*AMEA Naxçıvan Bölməsində yeni nəşr olunmuş "Naxçıvanın əlyazmalar xəzinəsi" kitabının təqdimatı keçirilib.*

Təqdimat mərasimini giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik əvvəlcə Əlyazmalar Fondunun ümumi fəaliyyətinə nəzər salıb, fond əməkdaşlarının son illər çap olunmuş əsərlərini diqqətə çatdırıb. Fondun səmərəli fəaliyyətindən söz açan bölmə rəhbəri qeyd edib ki, kitabdakı "Əlyazmalar Fondunun yaranması və inkişaf yolu" adlı ön sözdə qurumun ümumi fəaliyyəti ilə tanış olmaq, görülən işlər barədə geniş məlumat almaq mümkündür. Kitabı ümumi təhlil edən İsmayıl Hacıyev çıxışının sonunda müəllifləri ərsəyə gətirdikləri yeni kitab münasibətilə təbrik edib.



Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent Aygün Orucova tədbirdə "Əlyazmalar Fonduna həsr olunan dəyərli əsər" mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, layihənin müəllifi filologiya elmləri doktoru Fərman Xəlilov, nəşrin elmi redaktoru akademik İsmayıl Hacıyev, rəyçisi professor Hacıfəxrəddin Səfərli, müəllifləri isə Əlyazmalar Fondunun əməkdaşlarından Fərman Xəlilov, Səbuhi İbrahimov, Fəxrəddin Eylazov və Kübra Vəliyevadır.

Üç bölmədən ibarət kitabın ilk bölməsi "Naxçıvan əlyazma və çap materiallarında" adlanır. Burada Məhəmməd Tağı Sidqinin "Dilimiz və məktəbimiz" adlı məktubu, ölkəşünas Hacı Mirbağır Mirheydərzadənin Şərur dairəsinə ekspedisiyasının nəticələri, Seyid Səbrinin 1926-cı ildə "Şərq qapısı"qəzetində dərc olunmuş "Ordubad qəzasında asari-ətiqə" adlı məqaləsi, Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 14 iclas protokolu, mühafizə olunan qədim əlyazma, çap kitabları, bəzi mənbələrdə Naxçıvanla bağlı materiallar və başqa məlumatlar yer alıb.




Kitabın digər iki bölməsində isə fond əməkdaşlarının nəşr olunmuş monoqrafiya və kitabları, elmi məqalə, eləcə də konfrans materiallarının dərc olunduğu mənbələr diqqətə çatdırılır, fondda mühafizə olunan əlyazma və çap kitabları ilə bağlı tədqiqatlardan söz açılır.

Sonda kitabla bağlı fikirlərini ümumiləşdirən alim vurğulayıb ki, "Naxçıvanın əlyazmalar xəzinəsi" maraqlı tədqiqat əsəri olmaqla yanaşı, həm də Naxçıvan əlyazmaları ilə bağlı elmi araşdırmalara istiqamət verir.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tədbirdə çıxış edərək "Naxçıvanın əlyazmalar xəzinəsi" kitabı haqqında fikirlərini bölüşüb, əlyazma mətnlərini öyrənməyin məsuliyyətindən və tələb etdiyi zəhmətdən söz açıb.

Yeni kitabın ensiklopedik xarakter daşıdığını qeyd edən professor müəlliflərin işini yüksək qiymətləndirib, kitabda qeyd olunan bəzi toponimləri təhlilə cəlb edib, əlyazmalarda əksini tapan türk mənşəli yer adlarından, Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətindən danışıb.

Sonda müəlliflər adından çıxış edən Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov minnətdarlıq edib, mövzu ilə bağlı sualları cavablandırıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Möhtəşəm Məzun günü





Naxçıvan şəhərində, "Saat Meydanı" turistik istirahət kompleksində keçirilən Naxçıvan Dövlət Universitetinin Məzun günü Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Universitetin nəfəsli alətlər orkestrinin musiqi sədaları altında məzun keçidi olub.

Tədbirdə ali təhsil ocağının son illərdə qazandığı uğurlar iştirakçıların diqqətinə çatdırılıb, sonra universitetin Media mərkəzinin hazırladığı "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" adlı videoçarx nümayiş olunub.

2022-2023-cü tədris ilinin yekununda 1500 tələbənin məzun olduğunu deyən universitetin rektoru, dosent Elbrus İsayev təbrik çıxışı zamanı qeyd edib ki, tələbəlik illəri insan həyatında ən önəmli dövrü təşkil edir. Universitetin də məqsədi məhz intellektual, bacarıqlı, vətənpərvər gənclər yetişdirməkdir.

Rektor diqqətə çatdırıb ki, bu ildən etibarən Naxçıvan Dövlət Universitetinin buraxılış imtahanlarında dövlət qurumlarının rəhbər heyətinin də iştirakı təmin olunub ki, bu da yüksək göstəricilərlə məzun olan tələbələrin iş imkanlarına öz töhfəsini verəcək. Elbrus İsayev məzun adını qazanan bütün tələbələri təbrik edərək onlara gələcək həyatlarında uğurlar arzulayıb.

Sonra tələbələrin hazırladığı, çətin fəndlərin ustalıqla yerinə yetirildiyi "Karate şousu" iştirakçılar tərəfindən coşqu ilə qarşılanıb.

Qeyd edək ki, Məzun gününə ali təhsil müəssisəsinin keçmiş məzunları da qatılıb. Naxçıvan Dövlət Universitetinin məzunu, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin Sədri Asim Yadigar məzunları təbrik edərək onlara cansağlığı, bundan sonrakı fəaliyyətlərində böyük nailiyyətlər qazanmağı arzulayıb.

Mərasim zamanı universitetin məzunlarından ümumi orta müvəffəqiyyət göstəricilərinə görə fərqlənən tələbələrə plaket və hədiyyələr təqdim olunub, Jalə Cəfərova "Məzun kötüyü"nə xatirə lövhəsini vurub.

Sonra mərasim İncəsənət fakültəsinin müəllim və tələbələrinin hazırladığı konsert proqramı ilə davam edib.

Şəhid ailələrinin də iştirak etdiyi tədbirdə universitetin məzunu, həm də şəhid qardaşı Nihad Şükürlü və şəhid anası Fatma Şükürlü iştirakçılarla öz təəssüratlarını bölüşərək məzunlara gələcək həyatlarında uğurlar arzu ediblər.

Məzun tədbiri Tibb fakültəsinin gənc həkim məzunlarının ənənəvi andiçmə mərasimi ilə davam edib.

Məzunların "Papaqatma mərasimi" keçirildikdən sonra xatirə şəkilləri çəkdirilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Xüsusi qayğıya ehtiyacı olan uşaqlar "Yay məktəbi"nə cəlb olunub

*Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Bu sırada xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası, sağlamlıqlarının qorunması, təhsil almaları, asudə vaxtlarının səmərəli təşkil edilməsi daim diqqət mərkəzində saxlanılır, məqsədyönlü tədbirlər görülür, uşaqların bacarıq və maraqları nəzərə alınaraq onlar müvafiq məktəbəqədər, məktəb, məktəbdənkənar təhsil, müalicə və reabilitasiya müəssisələrinə, eləcə də idman və musiqi məktəblərinə cəlb olunurlar.*



Görülən işlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq xüsusi kateqoriyadan olan uşaqlar üçün Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi" təşkil edilib. Məlumat üçün bildirək ki, xüsusi qayğıya ehtiyacı olan ailələrin, şəhid və qazi ailələrinin övladları, o cümlədən valideyn himayəsindən məhrum olmuş uşaqlar olmaqla, ümumilikdə, 41 uşağın iştirak etdiyi "Yay məktəbi"nə 20 iyun tarixdə start verilib. Bu münasibətlə Ağbulaq İstirahət Mərkəzində tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev tədbirdə çıxış edərək artıq ənənə halını almış "Yay məktəbləri"nin uşaqlar üçün əhəmiyyəti barədə danışıblar. Bildiriblər ki, bu il Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Bu münasibətlə ölkəmizdə, eləcə də muxtar respublikamızda silsilə tədbirlər həyata keçirilir. Bu sırada uşaqlar da diqqətdə saxlanılıb. Dövlətimiz tərəfindən onların layiqli vətəndaş kimi yetişmələri, milli ruhda tərbiyə olunmaları, bilikli, bacarıqlı, yüksək intellektli vətəndaş kimi formalaşmaları üçün bütün tədbirlər həyata keçirilir.

Çıxış edənlər diqqətə çatdırıblar ki, uşaqların mənəvi-psixoloji inkişaflarına xidmət edən belə tədbirlərin təşkili onlara yeni dostluqlar qazanmağa, muxtar respublikanın təbiəti ilə yaxından tanış olmağa, dünyagörüşlərini artırmağa, asudə vaxtlarını səmərəli keçirməyə əlavə imkanlar yaradır. İstirahət müddətində uşaqlar mərkəzlə yaxından tanış olur, onlar üçün yaradılan bütün şəraitdən istifadə edirlər. Rahat və geniş istirahət mərkəzində müxtəlif stolüstü və əyləncəli oyunlarda iştirak edir, film izləyirlər. Onlara milli mətbəximizin zəngin və ləziz təamları təqdim olunur. Mərkəzdə istirahət edənlərlə görüşüb onların təəssüratlarını öyrəndik.





Şəhid Niyaməddin İskəndərovun qızı ***Mətanət İskəndərova*** bildirdi: – Gözəl təbiəti və istirahət məqsədilə ideal məkan olan Ağbulaq İstirahət Mərkəzində olduğum üçün çox sevincliyəm. Artıq 3-cü dəfədir ki, "Yay məktəbi"ndə iştirak edirəm. Burada keçirilən günlərin xoş və maraqlı olacağına, yeni dostlar, tanışlıqlar qazanacağıma əmin idim. Bu fürsəti yaxşı dəyərləndirməyə, "Yay məktəbi"ndə fəal iştirak etməyə çalışdım. Bizə belə imkanın yaradılmasına görə uşaqlar adından dövlətimizə minnətdarlıq edirəm.

Daha bir müsahibim aztəminatlı ailədən olan ***Ayxan Əhmədov*** dedi: – İlk dəfədir, "Yay məktəbi"ndə iştirak edirdim. İstirahətimizin mənalı təşkili üçün burada hər cür şərait yaradılmışdı. Hər yer təmiz, səliqəlidir. Burada müxtəlif intellektual oyunlar keçirildi və hamısında aktiv iştirak etməyə çalışdım. Vaxtımız, demək olar ki, çox gözəl və səmərəli keçdi. Buradan xoş təəssüratlarla ayrılıram.

Tətildən razı qalanlardan biri də valideyn himayəsindən məhrum ***Zülal Ələkbərov*** idi. O dedi: – Biz burada birlikdə maraqlı oyunlar oynadıq, müsabiqələrdə iştirak etdik və istirahətimiz maraqlı keçdi. Bundan sonra hər il belə "Yay məktəbləri"ndə iştirak etmək istəyərəm.

Məlumat üçün bildirək ki, "Yay məktəbi"nin proqramına uyğun uşaq hüquqları ilə bağlı maarifləndirici seminar, Ağbulaq kəndinin ekskursiyası, müxtəlif idman və əyləncəli oyunlar, intellektual yarışlar, diskussiyalar, uşaqlara aid olan kitabların mütaliə və müzakirəsi keçirilib. "Yay məktəbi"ndə "Heydər Əliyev və uşaqlar" mövzusunda videoçarx nümayiş olunub. Həmçinin Şahbuz Mədəniyyət Şöbəsinin mahnı və rəqs ansamblının iştirakı ilə konsert proqramı və Məhəmməd Tağı Sidqi adına Naxçıvan Muxtar Respublikası Kukla Teatrının kollektivinin iştirakı ilə tamaşa nümayiş etdirilib. İstirahət müddətində keçirilən müsabiqə və yarışlarda fəal olan uşaqlar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diplomla mükafatlandırılıblar.

*Qeyd edək ki, "Yay məktəbi"nə cəlb olunmuş uşaqlara nəzarət etmək üçün 4 nəfər komitə əməkdaşı və istirahət müddətində uşaqların sağlamlıqlarının qorunması, onlara ilkin tibbi yardımın göstərilməsi məqsədilə 1 nəfər həkim təhkim olunmuşdu. "Yay məktəbi" dünən başa çatıb.*

✍ **Aytac CƏFƏRLİ**

*Əfsanəyə dönən ömürlər*

## Şücaət, qeyrət, ucalıq zirvəsi



Böyük, müzəffər, müdrik Azərbaycan xalqının övladları Vətəni qorumağı, onun uğrunda canından keçməyi həmişə özünə şərəf bilib. Dövlətimizin ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən oğulları xalqımızın qürurudur.

Azərbaycan Silahlı Qüvvələrinin kapitanı olmuş ***Toğrul Səyyad oğlu Məmmədov*** da Vətənini canından əziz tutan, bu yolda ölümə gedən qəhrəman şəhidlərimizdəndir. 1988-ci il iyulun 26-da Babək rayonunun Şıxmahmud kəndində anadan olmuş, orta təhsilini Şıxmahmud kənd tam orta məktəbində almış bu qeyrətli Vətən oğlu 2002-ci ildən Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseydə təhsil almış, 2005-ci ildə liseyi böyük müvəffəqiyyətlə bitirmişdir. 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan igidimiz 2009-cu ildə buranı leytenant hərbi rütbəsi ilə bitirmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində 1 illik ixtisasartırma kursu keçmişdir. Bu igid Vətən oğlu özünün cəsurluğu, şücaəti ilə həmişə seçilmiş, 2016-cı il iyulun 14-ü Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində ərazi bütövlüyümüzün qorunub saxlanılmasında böyük şücaət göstərərək şəhidlik zirvəsinə yüksəlmişdir. İyulun 15-də Toğrul Məmmədov Babək rayonunun Şıxmahmud kəndində böyük ehtiramla son mənzilə yola salınmış, dəfn mərasimində minlərlə rayon sakini ilə yanaşı, şəhidimizin qulluq etdiyi hərbi hissənin əsgər və zabitləri də iştirak etmişdir. O, fəaliyyət göstərdiyi müddətdə mühüm nailiyyətlər qazanaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 və 95 illiyi yubiley medalları, Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə şəhadətindən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilmişdir. Döyüşlərdə böyük şücaət göstərən şəhidimiz haqqında müəllifi Manya Səxavətqızı olan "Qeyrət təcəssümü" kitabı işıq üzü görmüşdür.

Hərbçi yoldaşı 2016-cı il Aprel döyüşlərinin və 2020-ci il Vətən müharibəsinin iştirakçısı, ölkə başçısının müvafiq sərəncamları ilə "Vətənə xidmətə görə" ordeni, "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunan ***Səxavət Allahverdiyev*** Toğrulun igidliyindən, qəhrəmanlığından, vətənpərvərliyindən danışdı: – Toğrul ilə Ağdam rayonunda N hərbi hissədə birlikdə xidmət etmişik. Toğrulun zabit olaraq ilk təyinatı Ağdama verilmişdi, daha sonra xidmətini davam etdirmək üçün Bakıdakı hərbi hissələrdən birinə göndərildi. Toğrul könüllü olaraq ərizə yazaraq Bakıdan cəbhədə xidmət etmək üçün yenidən Ağdama N hərbi hissəyə qayıtdı və həmin hərbi hissədə mühəndis xidməti rəisi vəzifəsinə qədər yüksəldi. Toğrul bizim hərbi hissədə ad qoymuş nüfuzlu zabitlərdən biri idi və öz yoldaşları arasında səmimiyyəti, işgüzarlığı və cəsarəti ilə seçilirdi. Hər zaman gördük ki, hamı istirahət edəndə o, həmişə gecə ön xətdə döyüş mövqelərində olurdu. Gənc zabit kimi həmin hərbi hissədə xidmətə başladığımızda bizə çox dəstək olmuşdu. Şəhadətə yüksəldiyi gün bir yerdə idik, onda dedi ki, arzularım çoxdur, bacımı, qardaşımı evləndirmək istəyirəm, atamız yoxdur deyə evin bütün yükü mənim üstümdədir. Toğrul 1 əsgər və 1 gizirlə düşmənlə çox yaxın məsafə idi. Bu vaxt həmin əsgəri minalı sahədə snayperlə sağ çiynindən vurdular. Toğrul əsgəri çıxarmaq üçün sürünə-sürünə onun yanına, minalı sahəyə gedir və onu minalı sahədən çıxarır və həmin vaxt düşmən snayperi ilə başından vurularaq şəhadətə yüksəlir. Həmin əsgər Toğrulun şücaəti nəticəsində sağ qalır. Toğrul ön cəbhədə xidmət etdiyi müddətdə çox şücaətlər göstərmişdir. Toğrul şəhadətə yüksəldi, amma onların yaratdıqları mühəndis maneələri, süni maneələr 2016-cı ildən 2020-ci il Vətən müharibəsinə qədər düşmənin keçidlərinin, pusqularının qarşısını aldı və düşmən həmin ərazidə heç bir əməliyyat planlaşdıra bilmədi, basqın edə bilmədi.

*Bir şairimizin dediyi kimi "Ordum varsa, yurdum var, Ordum yoxsa, yurdum yox!" Vətəni qoruyan qeyrətli oğullarımız var olduqca xalqımız, dövlətimiz güclüdür, yenilməzdir, qüdrətlidir. 2020-ci il Vətən müharibəsində məhz müstəqil dövlətimizin güclü ordusunun, bu orduda xidmət edən, şücaəti və qəhrəmanlıqları ilə seçilən Vətən oğullarının hesabına tarixə qızıl hərflərlə yazılan şanlı Zəfər əldə edildi. Biz onların hər biri ilə fəxr edirik, şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 394